# Dövlətçiliyimizin təməl daşı

**Tarixin ən böyük ədaləti odur ki, xalq öz iradəsini ifadə edə və taleyinə özü sahib çıxa bilir. Bu haqq, yəni xalqın suverenlik hüququ - insan cəmiyyətinin azad yaşamaq istəyindən doğan və hüquqi normalarda təsbit olunan ali bir prinsipdir. Hər bir dövlətin varlığı və legitimliyi xalqın iradəsinə əsaslanmalıdır. Azərbaycan xalqı bu hüququ təkcə hüquqi sənədlərlə deyil, öz qanı və canı bahasına gerçəyə çevirmiş bir xalqdır.**

Müasir dövrdə xalqın suverenlik anlayışı təkcə hüquqi prinsip deyil, eyni zamanda milli kimliyimizin, dövlət müstəqilliyimizin və azad yaşamaq iradəmizin bariz ifadəsidir.

Suverenlik - bir xalqın öz taleyini özü müəyyən etmək haqqıdır. Bu haqq tarix boyu bəşəriyyətin azadlıq uğrunda apardığı mübarizələrin, inqilabların və milli oyanışların mərkəzində dayanıb.

Azərbaycan xalqı da bu hüququ öz qanı və canı bahasına qazanıb. Belə ki, 1990-cı illərin əvvəllərindən başlayaraq Ermənistan Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycana qarşı işğalçılıq siyasəti həyata keçirmiş və hərbi gücdən istifadə edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal etmişdir. Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər nəticəsində şəhər və kəndlərimiz viran edilmiş, ölkəmizin təbii resursları talan olunmuş, dövrümüzün ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı törədilmişdir.

Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etmiş və tarixi Zəfər qazanmışdır. Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail olmuşdur.

Tarix şahiddir ki, xalqın suveren iradəsinin parlaq təzahürü Vətən müharibəsində yaşandı. 27 sentyabr - 10 noyabr tarixlərində baş tutan 44 günlük Vətən müharibəsi zamanı xalq və ordu bir yumruq kimi birləşərək Azərbaycanın ərazi bütövlüyünü təmin etdi. Bu müharibə təkcə hərbi Zəfər deyildi. Bu, həm də xalqın illər boyu tapdanmış suveren hüququnun - öz torpaqlarında yaşamaq, öz sərhədlərinə sahib çıxmaq və öz gələcəyini müəyyənləşdirmək hüququnun bərpası idi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqın bu iradəsini cəbhədə, diplomatiyada və informasiya müharibəsində uğurla təcəssüm etdirdi. Bu gün Şuşa, Laçın, Kəlbəcər və digər işğaldan azad olunmuş ərazilərimizdə dalğalanan üçrəngli bayraq xalqın suverenliyinin simvoludur.

2023-cü il sentyabrın 19-da Qarabağda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə keçirilən antiterror tədbirləri tariximizə qızıl hərflərlə yazılıb. Çünki cəmi 23 saat davam edən və sentyabrın 20-də başa çatan əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirərək Azərbaycan Respublikasının suverenliyini tam bərpa edib. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycanın üçrəngli bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

Beləliklə, 1991-ci ildə dövlət müstəqilliyimizin bərpası, 2020-ci ildə torpaqlarımızın azad olunması ilə nəticələnən Vətən müharibəsi, 2023-cü ildə antiterror tədbirləri ilə ölkəmizin tam suverenliyinin təmin olunması xalqımızın öz suveren hüququna sahib çıxmasının canlı sübutlarıdır.

Azərbaycan Respublikasının Konstitusiyasında bu ali prinsip birbaşa qeyd olunub: "Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır".

Bu cümlə sadəcə hüquqi norma deyil, həm də dövlətin xalq qarşısında məsuliyyətinin əsas göstəricisidir. Hər bir vətəndaşın səsi, seçimi, iştirakı - dövlət idarəçiliyinin əsasını təşkil edir.

Demokratiya xalqın iradəsinə əsaslanan idarəetmə formasıdır. Məhz bu səbəbdən, biz hər beş ildən bir keçirilən prezident seçkilərində, parlament və bələdiyyə seçkilərində öz suveren iradəmizi ifadə edirik. Bu, təkcə hüquq deyil, həm də vətəndaşlıq borcudur.

Xalqın suverenliyi yalnız seçki hüququndan ibarət deyil. Bu, həm də cəmiyyətin bütün sahələrdə - iqtisadiyyatda, təhsildə, mədəniyyətdə, müdafiədə birgə qərar vermə, söz sahibi olmaq haqqıdır. Ölkəmizdə aparılan islahatlar, iqtisadi yüksəliş, ordu quruculuğu, xalqın iradəsinin, dəstəyinin nəticəsidir.

Xalq və dövlət birliyi Azərbaycanın inkişafının təməlidir. Bu gün ölkəmiz regionda aparıcı siyasi gücə çevrilibsə, bu, məhz xalqın öz suveren iradəsinə sahib çıxması, milli həmrəyliyimizi qoruması və dövlətə olan inamı sayəsində mümkün olub.

Qloballaşma dövründə milli dövlətlər müxtəlif təhdidlər və çağırışlarla üzləşir. Xarici təsirlər, informasiya müharibələri, ideoloji təsirlər - xalqın suveren iradəsinə qarşı yönəlmiş ciddi risklərdir. Bu mənada, hər bir Azərbaycan vətəndaşının informasiya savadlılığı, siyasi fəallığı və milli şüuru xüsusi əhəmiyyət daşıyır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət xalqın maraqlarına əsaslanır. "Xalq - dövlət üçün deyil, dövlət - xalq üçündür" prinsipi bu gün Azərbaycan reallığında tam şəkildə öz təsdiqini tapır.

Xalqın suverenlik hüququ milli müstəqilliyimizin, dövlətçiliyimizin və gələcək nəsillərin azad yaşamaq haqqının təminatıdır. Bu hüququn qorunması hər birimizin üzərinə düşən vəzifədir. Dövlətə güvənən, milli maraqları üstün tutan, gələcəyini doğma vətənində görən xalq heç bir təzyiq və təhdid qarşısında sarsılmaz.

Azərbaycan xalqı suverenliyini qazanıb, qoruyub və daim inkişaf etdirmək əzmindədir. Bu yolda birlikdə addımlayırıq, xalqla dövləti birləşdirən güclü iradə və qarşılıqlı etimadla!

Bütün tarixi reallıqları nəzərə alan Prezident İlham Əliyev 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq hər il sentyabrın 20-sinin Dövlət Suverenliyi Günü kimi qeyd edilməsi ilə bağlı sərəncam imzalayıb.

Sənəddə qeyd edilir ki, hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan: xüsusi buraxılış. - 2025.- 20 sentyabr.- S.8.